**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2022-ci il 15 fevral tarixli 340/4**
**nömrəli qərarı ilə təsdiq edilmişdir**

# Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda

## 1.Ümumi müddəalar.

1.1. Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda (Bundan sonra "Qayda") Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi məqsədi daşıyır və sistemdaxili istifadə üçün nəzərdə tutulmuşdur.

1.2. Auditorun reytinqi - bu təlimatın məqsədləri üçün auditorların (auditor təşkilatlarının) öz fəaliyyətlərində əldə etdikləri nəticələrin, onların işgüzar nüfuzunun və auditorların peşəkarlıq səviyyəsinin ifadəsidir.

1.3. Bu Qayda auditor xidməti ilə bağlı fərdi göstəricilərin əmsallarla ifadəsi metodundan istifadə olunmaqla hazırlanmışdır.

1.4. Reytinq auditorların (auditor təşkilatlarının) illik fəaliyyətlərinin yekununa əsasən Palatanın müvafiq struktur bölmələri tərəfindən təqdim edilən rəsmi məlumatlara, habelə aparılan sorğuların nəticələrinə əsasən müəyyən edilir.

1.5. Bu qaydaya uyğun olaraq hazırlanmış reytinqin nəticələri reklam məqsədilə istifadə edilə bilməz.

1.6. Auditorların (auditor təşkilatlarının) reytinqi Palata tərfindən yaradılmış xüsusi komissiya tərfindən bu Qaydaya əsasən müəyyənləşdirilir.

1.7. Auditorların (auditor təşkilatlar) reytinqi yalnız göstərilən tarixədək təqdim olunan məlumatlar əsasında müəyyən edilir. Sorğuları cavablandırmayan və ya həmin tarixdən sonra təqdim edən şəxslərin reytinqi ilə əlaqəli hər hansı iddia əsassız sayılır.

## 2.Tətbiq sahəsi.

2.1. Bu Qaydaya əsasən müəyyən edilmiş reytinq «Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulan fəaliyyət dairəsini əhatə edir.

2.2. Qayda Azərbaycan Respublikası ərazisində xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərən auditorların (auditor təşkilatlarının) göstəricilərinə tətbiq edilir.

2.3. Reytinq cədvəlləri «Böyük dördlük», Beynəlxalq şəbəkə təşkilatlarının ticarət nişanlarından istifadə edən audit təşkilatları, yerli auditor təşkilatları və sərbəst auditorlar üzrə ayrı tərtib edilir.

## 3.Reytinqin hesablanması üçün meyar göstəriciləri.

Reytinqin hesablanması üçün aşağıdakı meyar göstəricilərindən istsfadə edilir (məbləğlər - min manatla):

3.1. Auditor təşkilatlarının və sərbəst auditorlun iqtisadi göstəriciləri;

3.1.1Göstərilmiş auditor xidmətinin həcmi (min manatla);

3.1.2. Orta müqavilə məbləği (min manatla);

3.1.3.Məcburi auditlə bağlı olmayan müqavilələrin sayı (ədədlə);

3.2. Auditor təşkilatlarının və sərbəst auditorların peşəkarlıq səviyyəsinin müəyyənləşdirilməsi üzrə sorğunun yekunu (Bax: Əlavə 1);

3.3.Auditor təşkilatlarının və sərbəst auditorların işgüzar nüfuzunun müəyyən edilməsi üzrə sorğunun yekunu (Bax: Əlavə 1);

3.4. Bu Qaydanın 4.4. bəndində göstərilən şərtlər.

## 4. Reytinqin hesablanması metodikası.

4.1. Reytinq iqtisadi göstəricilər (İG) əsasında aşağıdakı qaydada hesablanır:

4.1.1. Göstərilmiş auditor xidmətinin həcminin hər min manatına 3 bal hesablanır;

4.1.2. Orta müqavilə məbləğinin hər min manatına 2 bal hesablanır;

4.1.3. Məcburi auditlə bağlı olmayan hər bir müqaviləyə 2 bal hesablanır;

4.1.4. 4.1.1-4.1.3. sətirlərinin məlumatları toplanır.

4.2. Auditor təşkilatlarının və sərbəst auditorların peşəkarlıq səviyyəsinin müəyyənləşdirilməsi üzrə sorğunun yekunu (PS) əlavə edilir.

4.3.Auditor təşkilatlarının və sərbəst auditorların işgüzar nüfuzunun müəyyən edilməsi üzrə sorğunun yekunu (İN) əlavə edilir.

4.4. Aşağıda göstərilən şərtlər (DŞ) nəzərə alınır:

- Reytinq balları Palatanın icraşı direktorunun təqdimatı əsasında, Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin məlumatları nəzərə alınmaqla 20%-dək artırıla bilər.
- Auditorun (auditor təşkilatının) göstərdiyi xidmətlərin 30% - i 1 (bir) müqavilə ilə bağlıdırsa, bu halda orta məbləğ hesablanarkən həmin müqavilə nəzərə alınmır.
- Auditorların reytinq ballarının baza hissəsi üzvlük haqqının ödənilməsi vəziyyətindən asılı olaraq aşağıdakı qaydada hesablansın:

a) Üzvlük haqqı 100%  və daha çox (avans olaraq) ödənildiyi halda - reytinq ballarının baza hissəsinə 10 bal əlavə edilsin;

İ) İllik üzvlük haqqı həmin ilin mart ayının 1-nədək ödənildiyi halda - reytinq ballarının baza hissəsinə 10 bal əlavə edilsin;

İİ) İllik üzvlük haqqı həmin ilin iyul  ayının 1-nədək ödənildiyi halda - reytinq ballarının baza hissəsinə 5 bal əlavə edilsin;

b) Üzvlük haqqı 100%-dən az ödənildiyi halda - reytinq ballarının baza hissəsi üzvlük haqqının ödənilməmiş hissəsi nisbətində azaldılsın;

Yuxarıda göstərilən üsul aşağıdakı düsturla ifadə olunur:

R= İG+PS +İN ±DŞ

Burada:

İG - Auditor təşkilatlarının və sərbəst auditorların iqtisadi göstəriciləri;

PS -Auditor təşkilatlarının və sərbəst auditorların peşəkarlıq səviyyəsinin müəyyənləşdirilməsi üzrə sorğunun yekunu;

İN - Auditor təşkilatlarının və sərbəst auditorların işgüzar nüfuzunun müəyyən edilməsi üzrə sorğunun yekunu;

DŞ - Bu Qaydaların 4.4 bəndində göstərilən digər şərtlər.